# AZƏRBAYCANDA MƏKTƏB KİTABXANALARININ İNKİŞAF TARİXİNDƏN

## Sosializm quruculuğunun yüksək mərhələsinin IX beşilliyində (1971-1975-ci illər) məktəb kitabxanaları yeni yüksəlişdə

***Yusif QAZIYEV***

*AMEA-nın Bakıxanov ad. Tarix İnstitutunun elmi işçisi,*
*əməkdar müəllim, pedaqogika üzrə fəlsəfə doktoru*

***Школьные библиотеки в новом уровне возвышения в период IX пятилетки строительства социализма(1971-1975 годы)***

***Резюме:*** *В школьных библиотеках создан активный ученический коллектив, за счет солидарности педагогического коллектива школьных библиотек. Проведенная по их инициативе работа по проведению утренников, встреч, читательских конференций, книжных обсуждений- обогащали знания и ум учеников.*

***The history of the development of school libraries in Azerbaijan***

***Abstract:*** *The article is called "School libraries in new progress in the period of IX five years of socialism development (1971-1975)".*
*Thanks to joint work of school teachers' staff of school library an active pupil team was formed at school libraries. By their enterprise meetings, campuses, readers' conferences, book discussions, and other works enriched the knowledge and intellect of the pupils.*

***Açar sözlər:*** *kitab, kitabxana, mütaliə, qərar, fond, əsasnamə*
***Ключевые слова:*** *книга, библиотеки, чтение, разрешение, акции, правила*
***Keywords:*** *book, library, reading, resolution, fund, the regulations*

IX beşilliyin birinci ilində əvvəlki dövrlərdə olduğu kimi məktəblilərin sinifdənxaric oxusu gündəmə gəlmişdir. Bu münasibətlə Sov. İKP-nin XXIV qurultayına Mərkəzi Komitənin hesabat məruzəsində Baş Katib L.İ.Brejnev demişdir ki, ölkəmizdə kitaba maraq həqiqətən böyükdür. Sovet xalqı dünyada ən çox mütaliə edən xalq sayılır. Bunu demək kifayətdir ki, Sov. İKP-nin XXIII və XXIV qurultayları arasında 6.5 milyard nüsxədən çox kitab və kitabça çap edilmişdir.

Bu baxımdan "Azərbaycan müəllimi" qəzetinin 10 fevral 1971-ci il tarixli (№12) "Məktəb kitabxanası" adlı məqalədə yazılmışdır.

"Müəllim geniş ictimaiyyətin qayğı və köməyini hiss etmədən komsomol və pioner təşkilatlarına, məktəbdənkənar tərbiyə müəssisələrinə, valideyn fəallarına, xüsusilə şagirdlərin dünyagörüşünü formalaşdırmaqda, onların idrak, maraq və qabiliyyətlərini inkişaf etdirməkdə mühüm vasitə olan məktəb kitabxanalarına arxalanmadan elmi-texniki tərəqqi əsrinin tələbləri ilə ayaqlaşa bilməz

Gərək müəllim və onun köməkçisi olan məktəb kitabxanası öz fəaliyyətini elə əlaqələndirsinlər ki. V.İ.Leninin dediyi kimi... "elm kağız üzərində qalmasın və ya modalı bir icazə olmasın. Elm doğrudan da iliyimizə və qanımıza işləsin, məişətin tamamilə və həqiqətən tərkib hissəsinə çevrilsin".

Qeyd edilən dövrdə 4 minə yaxın məktəb kitabxanası böyüməkdə olan nəslin mütaliə qabiliyyətinin, estetik və bədii zövqünün inkişafına xidmət göstərir. Məktəb kitabxanalarından yalnız şagirdlər deyil, müəllim və tərbiyəçilər, məktəbin digər işçiləri də istifadə edirdilər.

Bu dövrdə məktəb kitabxanaları pedaqoji kollektivin ən yaxın və etibarlı köməkçisinə çevrilmiş, şagirdlər üçün maraqlı tərbiyəvi tədbirlər həyata keçirən mərkəz olmuşdur. Bakının 14, 49, 161, 135, 181 saylı, Lənkərandakı 3 saylı, Ağdamdakı 1 saylı, Masallı rayonundakı Hişkədərə kənd məktəblərində keçirilən bir sıra maraqlı tədbirlər məhz məktəb kitabxanalarının adı ilə bağlıdır.

Həmin məktəblərin kitabxanaları öz işlərini yalnız şagirdlərə kitab verməklə məhdudlaşdırmır, həmçinin müxtəlif mövzularda toplanış və səhərciklər, oxucular konfransları, kitab müzakirələri, disputlar, yazıçı və şairlərlə, əmək adamları ilə görüşlər keçirir, diaqram, sərgi və foto-tərtiblər düzəldirlər. Bu kitabxanalarda müntəzəm olaraq pedaqoq alimlərin "Kitab üzərində necə işləməli" mövzusunda söhbətlər təşkil olunurdu. "Kitab sənin dostundur" adı altında toplanış və səhərciklər keçirilirdi (1).

Sabirabad rayonundakı M. Müşfiq adına şəhər 4 saylı məktəb kitabxanasının apardığı işlər də diqqətə layiq olmuşdur. Kitabxana 5.460 ədəd kitabla geniş oxucu kütləsinə xidmət edir. Kitabxanaya 460 nəfər oxucu cəlb edilmişdir. Kitabxanada vaxtaşırı şair və yazıçıların əsərlərinin müzakirəsi, ədəbi viktorinalar, sual-cavab axşamları keçirilirdi.

Məktəbdə təşkil edilən müsamirələrdə, səhərciklərdə təkcə şagird və müəllim kollektivi deyil, valideynlər də fəal iştirak etmişlər. Qeyd edilən dövrdə Mirzə İbrahimovun "Gələcək gün" əsərinin müzakirəsi keçirilmişdir.

Lakin öz vəzifəsini kitab verməklə bitmiş sayan kitabxanaçılar da vardır. Bununla yanaşı məktəb kitabxanalarında işə təsadüfü adamlar qəbul olunurdu.

Hətta kitabxana üçün otaq ayrılmamışdır. Elə hallar olurdu ki, hər hansı böyük bir otağa 2 şkaf qoyulur, hərəsinə 50-100 nüsxə kitab gətirilir, burada maaşlı kitabxanaçı təyin olunurdu. Bir çox kitabxanalar il ərzində 1 nüsxə də olsa kitab almamışdır (1).

Dövrün bir məktəb kitabxanasının iş təcrübəsi haqqında geniş məlumat verir. (2). (Məqalədə Bakının 199 nömrəli orta məktəbinin kitabxanasının iş təcrübəsindən danışılır). Kitabxananın 45 nəfərlik oxucu zalı-qiraətxanası, 10 minə yaxın kitab fondu, 900-dən çox oxucusu vardır. Kitabxanaçı hər dərs ilinin ilk günlərindən I sinif şagirdlərində kitaba, mütaliəyə maraq oyatmaqla, onu sevdirməyə çalışır. Bu məqsədlə də o, müəllimlə birlikdə oxucuları kitabxana ilə tanış edir, kitabın, mütaliənin əhəmiyyətini, kitabla rəftar etmək qaydalarını onlara başa salır, kitablardan onlara maraqlı epizodlar danışır. Yeni kitablara dair vitrin düzəldilir, yeni kitablar barədə məktəbin divar qəzetin də və məktəbin radio qovşağı ilə məlumat verilir. Şagirdlərin uşaq ədəbiyyatına marağı inkişaf etdirmək üçün kitabxanada ucadan oxu, kitab müzakirəsi, səhərciklər, yazıçılarla görüşlər təşkil olunur". Hər sinif üçün ümumi kataloq təyin edilmiş, tövsiyə siyahısı hazırlanıb divardan asılmışdır. "Kitabxanaçı qəzetlərdən, jurnallardan lazımi məqalələr kəsib müxtəlif bölmələr üzrə (məsələn, oktyabryat, pioner işləri, əlamətdar günlər və s.) qovluqlarda saxlayır. Qəzetdən mühüm hadisələrə aid başlıqları yazmaq üçün kitabxanada ümumi dəftər ayrılmışdır. Başlıqlardan sonra qəzetin adı, tarixi nömrəsi qeyd olunur ki, bu da lazım gəldikdə oxucuların tələblərinin təyin olunmasına kömək edir.



Yaz tətili günlərində III-IV siniflərdə oxucu konfransı keçirmək, kitabxanada bir ənənə olmuşdur. Məsələn, "Xalq mahnıları əbədi xəzinədir" mövzusu üzrə keçirilmiş konfransda kitabxanaçı tərəfindən xalq mahnıları haqqında ümumi məlumat verilmişdir və s.

IX beşillikdə Sov. İKP XXIV qurultayının qarşıya qoyduğu vəzifələrin layiqincə yerinə yetirmək üçün maarif sahələrində də gərgin iş tələb olunurdu. Bu iş yalnız müəllimlərin dərsləri yüksək səviyyədə qurmaları ilə bitmirdi. Pioner və komsomol təşkilatlarının, fənn və bədii özfəaliyyət dərnəklərinin, məktəb kitabxanasının işinin yaradıcı olması tələb olunurdu.

Məktəb kitabxanasının fəaliyyəti təkcə şagirdlərə kitab verib, onlardan kitab almaqla bitmirdi. Onlardan tələb olunurdu ki, şagirdlərin proqram materiallarını dərindən mənimsəməsində, onların dünyagörüşünün inkişaf etdirilməsində kitabxananın böyük əhəmiyyəti olduğu vurğulanırdı.

Bu dövrdə Bakıda, Gəncədə, Sumqayıtda eləcə də bir sıra kənd rayonlarında öz işini günün tələbləri səviyyəsində qurmuş məktəb kitabxanaları az deyildir.

Bakının 87 saylı məktəbinin bütün şagirdləri məktəbin kitabxanasına üzv olmuşdur. Burada proqram materiallarının dərindən mənimsənilməsi, kitabın təbliği üçün böyük işlər görülmüşdür. Mənbələrin birində deyilir ki, elə gün olmaz ki, kitabxanada kitabla və mütaliə ilə əlaqədar maraqlı tədbirlər keçirilməsin: yazıçı və şairlərlə görüşlər, yeni nəşr edilmiş əsərlərin müzakirəsi, disputlar, söhbətlər, bütün bunlar pioner və komsomolçuların, oktyabryatların marağına səbəb olmuşdur. Məktəbdə əlaçıların sayı artmış. Dərs keyfiyyəti yüksəlmişdir. Həmçinin Bakının 23, 134 saylı məktəblərin kitabxanaları da işini günün tələbləri səviyyəsində qurmuşdur.

Bu kitabxanalarda da şagirdlərin dünyagörüşünü genişləndirən tədbirlər həyata keçirilmişdir: kitab müzakirələri, disput və oxucular konfransları, ədəbi-bədii axşamlar, yazıçı və şairlərlə, əmək qabaqcılları ilə görüşlər müntəzəm olaraq təşkil edilmişdir.

Gəncədə 20 saylı, Ağdamda 1 saylı, Ağdaşda 1 və 2 saylı, Yevlaxda 4 saylı şəhər məktəb kitabxanalarının işi günün tələbləri səviyyəsində qurulmuşdur.

Lakin təəssüf ki, respublikanın bir çox yerlərində vəziyyət belə olmamışdır. Bir çox məktəblərdə, xüsusən kənd yerlərində də məktəb kitabxanalarının yalnız adı vardır.

Bu dövrdə əlamətdar hadisələrdən biri də ondan ibarətdir olmuşdur ki, bir çox məktəblər, o cümlədən Gəncənin 4, 6, 13 saylı məktəblərin pedaqoji kollektivləri məsələ qaldırmışlar ki, hər bir şagirdin şəxsi kitabxanası olmalıdır şüarını irəli sürmüşlər.

O dövrün mətbuatında qeyd edilirdi ki, məktəb kitabxanasının qarşısında duran vəzifələr böyük və məsuliyyətlidir.

Həmin vəzifələrin yerinə yetirilməsi təkcə kitabxana işçilərindən yox, pedaqoji kollektivin bütün üzvlərindən, əlaqədar təşkilatların nümayəndələrindən gərgin zəhmət, böyük səy tələb edirdi (1).

Yeri gəlmişkən, bu dövrdə məktəb kitabxanaları kütləvi və uşaq kitabxanaları ilə sıx əlaqədə olaraq çatışmayan kitabları abonent üsulu ilə kitabxanada ədəbiyyat qıtlığını aradan qaldırırdılar. Xüsusən uşaq kitabxanaları maddi təminat bazası kimi məktəb kitabxanalarında xidmət edirdi.

Mənbələrin birində deyilirdi:

Yevlax şəhərindəki mərkəzi uşaq kitabxanası öz səliqə-sahmanı ilə sərgi salonunu xatırladırdı. Burada foto-tərtiblər, əbədi simaların - N.Gəncəvinin, M.Füzulinin, Ş.İ.Xətainin, A.Bakıxanovun, M.F.Axundovun, N.Nərimanovun, S.Vurğunun şəkilləri salona daha yaraşıq verirdi.

18.730 ədəd kitab fondu olan bu kitabxananın 1.200 daimi oxucusu olmuşdur. 9 məktəbdə səyyar kitabxana fəaliyyət göstərir. Bu kitabxana 800 oxucusunu özündə birləşdirmişdir. Həmçinin orada müxtəlif mövzularda - "Azərbaycan qəhrəmanlar yurdudur", "A.Səhhət və uşaq ədəbiyyatı", "Xalqımızın fəxri" və sair mövzularda söhbətlər, müsahibələr və müzakirələr keçirilmişdir.

Kitabxana işçiləri 1 saylı şəhər məktəbindəki $II^A$, $II^B$, $II^V$, və 5 saylı məktəbindəki $III^A$, sinif şagirdlərini hamiliyə götürmüşlər (3).

Bu dövrdə bədii uşaq ədəbiyyat tərbiyənin ən kəskin, ən təsirli vasitələrindən hesab edilirdi. Uşaqlara aid əsər yazmaq üçün onların həyatını, uşaq aləmini diqqətlə, dərindən öyrənmək lazım idi. Burada əsas məslə uşaqlara nəyi necə vermək idi.

Yeri gəlmişkən, insan və onun tərbiyəsi məsələsi, böyük Nizaminin poemalarından başlamış Füzulinin, Seyid Əzim Şirvaninin, Sabirin, Abdulla Şaiqin əsərlərində, eləcə də uşaqlar üçün yazılmış başqa əsərlərdə həmişə ana xətt gələcək üçün hərtərəfli inkişaf etmiş vətənpərvərlər, əməksevərlər yetirmək olmuşdur. Bu gözəl ənənə bütün dövrlərdə inkişaf etdirilmiş və hazırda da inkişaf etdirilməkdədir. Bunlara misal olaraq müasir uşaq ədəbiyyatı pionerləri, sonrakı nəslin nəsihətçiləri olan Mikayıl Rzaquluzadənin əsərləri ilə yanaşı, "Dağlarda şimşək çaxır", "Yağış mahnısı", "Zastavoya gedən yol", "Qocalar və uşaqlar", "Xəzərin üzərində şəfəqlər", "Üç qardaş bir bacı", " Kəpənəkli, çiçəkli misralar", "Buludlar", "Günəş məndən gözəldir", "Meşədə söhbət", "Ramiz və onun nənəsi", "Noğul", "Çəmən qızı, "Çimnaz oynayır", "Uçan çıraqlar, "Kəkliklərin nəğməsi", "Xumar" və s. povest, poema, şeir və hekayələri məktəb kitabxanalarının bədii ədəbiyyat fondunu zənginləşdirirdi.



Həmçinin uşaqların igidliyinə, cəsurluğuna aid "Şiş papaq", "Dəcəllər" (Eynulla Ağayev), "Dağ bənövşəsi"( Əmrah Əmrahov) və s. povest və hekayələr, o cümlədən İlyas Tapdığın "Təpələr", Teymur Elçinin " Sözlər, nəğmələr, nağıllar", Məstan Əliyevin "Çəmən qızı", Xanımana Əlibəylinin "Noğul" kitabları məktəb kitabxanalarında gənc nəslin tərbiyəsinin və biliklərinin formalaşmasında böyük rol oynamışdır.

Lakin bununla yanaşı mətbuatda qeyd edilirdi ki, məktəb həyatından alınmış iri həcmli povestlər bizdə yox dərəcəsindədir. Belə əsərlərin yaradılması isə zəruridir. Çünki məktəblərimizdə elə tərbiyəvi xarakter daşıyan məsəllər vardır ki, onları ədəbiyyatımızda əks etdirmək vacibdir, zəruridir. Səkkizinci, doqquzuncu siniflərdə elə qəribə maraqlı, ictimai-faydalı hadisələr baş verir ki, bunlar hər bir yazıçını qanadlandıra bilər. Məktəblərin böyük yaşlı şagirdləri gileylənirlərmiş ki, onların həyatından alınmış əsərlər yazılmır (4).

Bu münasibətlə dahi Azərbaycan Xalq yazıçısı Mirzə İbrahimov haqlı olaraq uşaqlarda möhkəm xarakter yaratmağı, həm də bu mövzuda iri həcmli əsərlərin yazılmasını zəruri hal hesab etmişdir.

Lakin mətbuatda bildirilirdi ki, uşaqlar üçün yazılan əsərlərdə tapmaca, yanıltmac, layla və nağıllar azlıq təşkil edirdi. Bu da ondan irəli gəlmişdir ki, uzun illər uşaqlarımız üçün yazan təcrübəli yazıçılarımız nədənsə bu sahədən uzaqlaşmışlar.

Bununla yanaşı, Azərbaycan uşaq ədəbiyyatının vəziyyətini yaxşılaşdırmaq üçün əsas məsələlərdən biri nəşr və tiraj məsələsi idi. Uşaq ədəbiyyatını nəşr edən nəşriyyat yalnız "Gənclik" nəşriyyatı olmuşdur ki, o da kiçik oxucuların tələbatını ödəmirdi. Buraxılan ədəbiyyat isə keyfiyyətsiz idi, kitabların tirajı məktəbləri ödəmirdi (5).

"1972-ci il beynəlxalq kitab ilidir" çağırışına cavab olaraq kütləvi və uşaq kitabxanaları məktəbləri hamiliyə götürərək şagirdlərin sinifdən və məktəbdənxaric mütaliəsinə yaxından kömək edirdilər.

Məsələn, Bakının Nərimanov rayonundakı Firdovsi adına kütləvi kitabxananın uşaq şöbəsində məktəblilərə kitabı sevdirmək, onlarda bədii ədəbiyyata maraq oyatmaq üçün maraqlı tədbirlər həyata keçirilmişdir. Şöbənin 500-dən yuxarı oxucusu olmuşdur. Uşaqlar burada dünya və rus yazıçılarının əsərləri ilə tanış olmuşlar, qəzet və jurnallar mütaliə etmişlər.

Oxucunu özünə cəlb edən sərgilər "Kitab gələcəyin proqramıdır", "1972-ci il beynəlxalq kitab ilidir", "Yeni kitablar", "Bizim şəhər", "Partiyanın XXIV qurultayı və yeni insanın formalaşması", "M.S.Ordubadi", "Çiçəklənən Azərbaycan", "Mülkü-müdafiəyə dair" və başqa sərgilər xüsusi zövqlə tərtib olunmuşdur.

Kitabxananın uşaq şöbəsində başqa kütləvi tədbirlərə də yer verilirdi. Əmək adamları ilə görüşlər təşkil edilirdi. Burada şair Cabir Novruzla keçirilmiş görüş daha maraqlı olmuşdur. Həmin görüşdə Nərimanov rayonunun 36, 39, 200 saylı məktəblərin şagirdləri iştirak etmişlər. Görüş zamanı o, yaradıcılıq planlarından söhbət açmışdır.

Kitabxana işçiləri tez-tez 36, 39, 200 saylı məktəblərə gedərlərmiş və orada məktəb kitabxanaçıları ilə birgə tədbirlər planlaşdırarlarmış (6).

Məktəb pedaqoji kollektivinin əlbir işi sayəsində məktəblərdə formalaşdırılmış fəal şagird kollektivi yaradılmışdır ki, onların təşəbbüsü ilə keçirilən hər bir görüş, toplanış, səhərcik, oxucular konfransları, kitab müzakirələri və s. şagirdlərin zehnini yeni məlumatlarla zənginləşdirirdi.

Mətbuat səhifələrində qeyd edilirdi ki, Bakının 7, 14, 31, 190, 18, Ağdamın 1, Yevlax rayonunun Xaldan kənd orta, Bərdə şəhərinin 1 saylı, Neftçala şəhərinin 1 saylı orta məktəblərinin (7) və Port-İliç şəhər orta məktəbinin gördükləri işlər diqqətə layiq olmuşdur.

Port-İliç şəhər orta məktəbinin kitabxanası 10 min nüsxə kitabla 850 oxucuya xidmət edirdi. Burada müntəzəm olaraq kitab müzakirələri, ədəbi-bədii axşamlar keçirilirdi (8).

Bu baxımdan Bakının 190 saylı məktəbinin işi nümunəvi olmuşdur. Məktəbin ədəbiyyat müəllimi, Sosialist Əməyi Qəhrəmanı Zərbəli Səmədov demişdir: "Mən şagirdlərə mütaliənin ən böyük təhsil olduğundan yeri gəldikcə söz-söhbət açır, kitabın bilik mənbəyi olduğundan danışıram, onu sevməyi, ondan geniş istifadə etməyi məsləhət görürəm. ədəbiyyatdan dövlət proqramı üzrə sinifdə və sinifdənkənar mütaliə üçün göstərilən əsərlərin siyahısını hər il şagirdlər yay tətilinə buraxılarkən onlara yazdırıram. Dərs ilinin hər rübünün əvvəlində də bu işi təkrarlayıram. Şagirdlərin məktəb və şəhər kitabxanalarına yazılması və müəyyən siniflərdə ən lazımlı kitabların oxunmasını izləyirəm (8).

Şagirdlərdə mütaliəyə həvəs oyatmaq üçün 190 saylı məktəbdə müntəzəm olaraq keçirdiyimiz oxucular konfranslarının, disputların, yazıçılarla görüşlərin, ədəbi-bədii gecələrin böyük əhəmiyyəti olmuşdur.

Məktəbdə keçirilən oxucu konfranslarında, disputlarda R.Rzanın "Lenin" S.Dağlının "Bahar oğlu", B.Vahabzadənin "Şəbi-hicran", H.Hüseynzadənin "Yolda", N.Xəzrinin "Sumqayıt səhifələri", M.Rəhimin "Leninqrad göylərində", H.Abbaszadənin "General" əsərlərinin müzakirəsi müəlliflərin iştirakı ilə keçirilmişdir (9).

Digər kütləvi və mərkəzi kitabxanalar da dövlətin gənc nəsil barədə yeritdiyi siyasətə qoşularaq məktəb şagirdlərini özünə cəlb edirdi. Məsələn, 39.403, nüsxə kitab və jurnal fonduna malik olan Xanlar (Göy-göl) rayonunun mərkəzi kitabxanası 130 nəfər oxucuya xidmət göstərmişdir ki, onlardan 70 nəfəri şagird idi (8).

Cari ildə (1973) 3500 məktəb kitabxanası günün tələbləri səviyyəsində işlərini qururlar. məktəb kitabxanaları, məktəb rəhbərləri, fənn müəllimləri, sinif rəhbərləri ilə möhkəm əlaqə şəraitində rəngarəng işlər aparırdılar.

Siyəzən qəsəbəsindəki 2 saylı orta məktəbin kitabxanasında müxtəlif fənn dərnəkləri - "Kitabın dostu", "Gənc ədəbiyyatçı", "Bacarıqlı əllər", "Gənc tarixçi" fəaliyyət göstərirdilər. Məktəbin bütün şagirdləri kitabxananın oxucusu idi.

Gəncə şəhərində 4, Bakıda 190, 132, 134, 23. Naxçıvan şəhərindəki 1, Şuşa şəhərindəki 4 saylı məktəblərin kitabxanalarının işləri də bəyənilmişdir.



Lakin məktəb kitabxanalarının heç də hamısında vəziyyət sevindirici olmamışdır. Hələ də qapısı günlərlə bağlı qalan kitabxanalara rast gəlmək olurdu, belə məktəblər Mingəçevirdə, Şamaxıda, Dəvəçidə mövcud olmuşdur.

Nöqsanlardan biri ondan ibarət olmuşdur ki, kitabxana müdirliyi işlə heç bir əlaqəsi olmayanlaratapşırılmışdır. Digəri isə ondan ibarət olmuşdur ki, çox hallarda kitabxana müdirliyi dərsi az olan müəllimlərə təminat xatirinəverilmişdir (1).

XX əsrin 70-ci illərinin əvvəllərində şagird kontinenti ildən-ilə artır. Dərsliklərə, dərs vəsaitinə olan tələbat da çoxalır. Bütün bunlar məktəblərdə dərsliklərdən ibarət kitabxana fondları yaradılması zərurətini doğurmuşdur. Hələ 3 iyul 1967-ci ildə SSRİ Nazirlər Soveti "Məktəb dərsliklərinin hazırlanması və nəşrinin yaxşılaşdırılması və məktəblərin dərsliklərlə təmin edilməsi tədbirləri haqqında" 502 mühüm qərar qəbul etmişdir. Həmin vaxtdan məktəblərdə dərslik fondu yaradılması problemi qarşıda dururdu və bu sahədə xeyli iş görülmüşdür. 1972-1973-cü dərs ilinə qədər məktəb kitab fondunda 768.537 dərslik toplanmışdır. Bu işi daha da canlandırmaq üçün Azərbaycan SSR Maarif Nazirliyi məktəb kitabxana fondu yaradılması barədə rayon və şəhər xalq maarif şöbələrinə xüsusi məktub, əmr və digər təlimatlar, həmçinin kitabxana fonduna alınacaq dərsliklərin siyahısını göndərmişdir. Bu sahədə DQMV, Naxçıvan MSSR, Gəncə şəhəri və Füzuli rayonu diqqətə layiq işlər görmüşlər, Cəlilabad, Sabirabad, Masallı, Ağdam rayonlarının və başqa rayonların icraiyyə komitələrinin qərarı ilə nəğd, pul toplanıb məktəb kitabxana fondu yaratmaq üçün xalq maarif şöbələrinin hesabına köçürülmüşdür.

Azərbaycan SSR Maarif Nazirliyinin 24 may 1973-cü il 94 saylı əmrində deyilirdi: partiya sovet orqanlarının, ictimaiyyətin və xalq maarif orqanlarının kitabxana dərslik fondu yaratmaq sahəsindəki qiymətli təşəbbüsü respublikanın əksər rayonu və şəhərləri tərəfindən lazımınca müdafiə olunmamışdır.

Doğrudan da ümumi cəhətdən bu iş yarıtmaz vəziyyətdə idi. Yuxarıda qeyd edilən qərardan 6 il keçmişdir, ancaq çox cüzi iş görülmüşdür. Xüsusən Abşeron, Dəvəçi, Saatlı, Qubadlı, Gədəbəy, İmişli rayonları və bir sıra rayonlar dərslik fondunun yaradılmasınaəhəmiyyət verməmişlər (1).

Nazirin bu qərarından sonra vəziyyət bir qədər yaxşılaşdı. Respublikada məktəb kitabxana fondunun müxtəlif ədəbiyyat və dərsliklərləkomplektləşdirilməsinə, bu məqsədlə ayrılan vəsaitin düzgün və vaxtında xərcləməsinə, kitabxana fondlarının yaradılmasına diqqət get-gedə artdı. BXMŞ, DQMV, Gəncə, Şəki, Füzuli, Qazax, Tovuz, Goranboy, Xanlar (Göy-göl), Daşkəsən rayonlarının bu sahəsindəki fəaliyyəti təqdirəlayiq olmuşdur.

Bununla yanaşı həmin məktəblərin kitabxanalarında görülən işlər günün tələbləri səviyyəsində yüksəlmişdir: məktəb rəhbərləri, fənn və sinif müəllimləri ilə möhkəm əlaqə şəraitində işləmişlər, şagirdləri mütaliəyə daha çox həvəsləndirmişlər, məktəblər üçün müxtəlif və maraqlı tədbirlər həyata keçirmişlər. Gənc oxucuların səhərciklərdə, kitab müzakirələrində, yazıçı və şairlərlə görüşlərdə

iştirakı sözsüz ki, onların fövqəl təfəkkürünü inkişaf etdirmiş, dünyagörüşlərini genişləndirmişdir.

Bakıdakı 23, 62, 132, 190, Gəncə şəhərindəki 16, İsmayıllı rayonundakı Qubaxəlilli və bir sıra digər məktəb kitabxanalarının bu sahədəki işləri tərifəlayiq olmuşdur: vaxtaşırı yeni kitabların müzakirəsi keçirilmiş, oxucular konfransı və disputlar təşkil olunmuş, sərgilər hazırlanmış, divar qəzeti və bülletenlər buraxılmış, şagirdlərə, onların valideynlərinə faydalı məsləhətlər verilmişdir.

Lakin bütün məktəb kitabxanalarında işin nümunəvi quruluşunu söyləmək düzgün olmazdı. Şagirdlərin kitabxanalara cəlb edilməsində, dərslik fondlarının yaradılmasında, kütləvi tədbirlərin hazırlanıb keçirilməsində uçot və hesabat işlərinin aparılmasında, habelə bu işə XMŞ-nin və məktəb direktorlarının rəhbərlik etməsində bir sıra ciddi nöqsanlara yol verilmişdir. Qubadlı, Xaçmaz, Lənkəran, Dəvəçi, Kürdəmir, Ağcabədi və bir sıra başqa rayonlar dərslik fondları yaradılmasına lazımı qayğı göstərməmişlər.

Bir sıra məktəblərdə şagirdlərin oxu mədəniyyətinin yüksəldilməsində və onların kitabxanalara cəlb olunmasında nöqsanlara yol verilmişdir. Laçın, Lerik, Kəlbəcər, Qax, Dəvəçi, Yardımlı, Qubadlı rayonlarında məktəb kitabxanalarına cəlb edilən şagirdlərin sayı olduqca azdır.

Bir çox məktəblərdə kitabxanalar üçün xüsusi otaq ayrılmamışdır. Məktəb kitabxanaları sinif otaqlarında, fənn kabinetlərində, fizika və kimya laboratoriyalarında yerləşdirilmişdir. Bu isə oxucuların sayının azalmasına. xeyli kitabın itib-batmasına səbəb olmuşdur.

İşdə nöqsanlardan biri də kitabxana işçilərinin düzgün seçilib yerləşdirilməməsi olmuşdur. Qubada 17, Qubadlıda 11, Ağsuda 10, Dəvəçidə 21, Cəlilabadda 13 nəfər kitabxanaçının ixtisas və pedaqoji təhsili olmadığı üçün həmin məktəblərdə kitabxanaya aid mövcud təlimat pozulmuşdur (1).

70-ci illərdə şagirdlərin sinifdənxaric mütaliəsi kitabxananın apardığı işlərlə məhdudlaşdırılmırdı. Bu işdə məktəb kollektivinin-fənn müəllimləri, kabinet müdirləri, sinif rəhbərlərinin də üzərinə də məsuliyyət düşürdü. SSRİ Maarif Nazirliyinin baş məktəblər idarəsi SSRİ PEA-nın Ümumi Tərbiyə Problemləri Elmi-Tədqiqat İnstitutu ilə birlikdə "Sinif rəhbərlərinin işi haqqında" metodik məktubunda sinif rəhbərləri toplanışlar, yığıncaqlar, konfranslar, disputlar üçün mövzular seçilməsində materiallar ayırmaqda pioner və komsomol fəallarına kömək edir. VII-VIII sinifdə xüsusən, yuxarı siniflərdə oxuyan şagirdlərin bu cür işləri müstəqil surətdə görməsi və yalnız məsləhət almaqdan ötrü sinif rəhbərlərinə müraciət etmələri üçün, sinif rəhbərləri hələ IV-V siniflərində başlayaraq şagirdlərə şəxsi təhsil vərdişləri-qəzet oxumağı öyrətməli, jurnallardan, kitablardan radio və televiziya proqramlarından istifadə etməyi aşılamalı idilər (10).

**Ədəbiyyat**


1. Məktəb kitabxanası (baş məqalə). "Azərbaycan müəllimi" qəz., 10 fevral 1971-ci il, №12, səh.1





2. Günəşli N. Məktəb kitabxanası // İbtidai məktəb və məktəbə qədər tərbiyə. 1971, № 2, səh.68-70.
3. İbrahimov Ə. Yevlax şəhərindəki 2 saylı məktəbin müəllimi. Məktəblilərin sevimli yeri. "Azərbaycan müəllimi" qəz., 19 dekabr 1971-ci il, №99, səh.3
4. Hasilova X. Uşaqlar üçün dəyərli əsərlər yaradaq. "Azərbaycan gəncləri" qəz. 19 fevral 1972-ci il, səh.3.
5. Əliyeva Z. Azərbaycan müəllimi" qəz., 18 fevral 1972-ci il №15, səh.4.
6. Səmədov V. Kitab hamının dostudur. "Azərbaycan müəllimi" qəz., 27 sentyabr 1972-ci il, №78, səh.3.
7. Geniş dünyagörüşlü gənc nəsil yetişdirək (Baş məqalə). "Azərbaycan müəllimi" qəz., 21 fevral 1973-cü il, № 16, səh.1.
8. Şagird və kitab. "Azərbaycan müəllimi" qəz., 22 dekabr 1972-ci il
9. Şagirdlərin mütaliə mədəniyyətini hər vəchlə inkişaf etdirməli // Azərbaycan məktəbi. 1973
10. Korotov V. Uşaq kollektivinin tərbiyəçisi. "Azərbaycan müəllimi" qəz., 27 noyabr 1974-cü il